**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN
STATİSTİK VAHİDLƏRƏ MÜRACİƏTİ**

*Hörmətli sahibkarlar, müəssisə və təşkilatların rəhbərləri!*

Məlumat üçün bildiririk ki, ölkədə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində xüsusi karantin rejimi dövründə Dövlət Statistika Komitəsinin əksər işçiləri əmək funksiyalarını evdə yerinə yetirirlər. Bununla əlaqədar olaraq rəsmi statistika hesabatlarının təqdim edilməsi ilə bağlı yaranan sualları Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində "Bizimlə əlaqə" bölməsinin "Dövlət Statistika Komitəsinin əməkdaşlarının e-poçt ünvanları" hissəsində (link: https://www.azstat.org/e_unvan/) göstərilmiş elektron poçt vasitəsi ilə ünvanlamağınız xahiş edilir.

**Azərbaycan Respublikasının
Dövlət Statistika Komitəsi**